QANUN № 02 (352), 2024, s. 110-114



**Süleymanlı Nərgiz Natiq qızı,**
Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Dövlət və hüquq nəzəriyyəsi və tarixi kafedrasının "Dövlət və hüquq nəzəriyyəsi və tarixi" ixtisaslaşması üzrə 2-ci kurs magistrantı
E-mail: nargiz.n.suleymanli@gmail.com

**UOT 340**
**DOI: 10.30546/2218-9130. 02.352.2024.29**

# AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİ: MƏHKƏMƏ SİSTEMİNDƏ YERİ VƏ ROLU

***Açar sözlər:*** *ali məhkəmə, məhkəmə sistemi, məhkəmənin rolu, kassasiya, plenum, vahid məhkəmə təcrübəsi.*

***Ключевые слова:*** *верховный суд, судебная система, роль суда, кассационная инстанция, пленум, единая судебная практика.*

***Keywords:*** *supreme court, judicial system, the role of the court, cassation, plenum, unified judicial practice.*

Ali Məhkəmə Azərbaycan Respublikasında ədalət mühakiməsini həyata keçirən sonuncu instansiya məhkəməsidir. Azərbaycan Respublikasının Konstitusiyasının (bundan sonra – Konstitusiya) VII fəsli məhkəmə hakimiyyətinin ilkin konstitusion tənzimləməsini nəzərdə tutur. Belə ki, Konstitusiyanın 125-ci maddəsinin I hissəsinə əsasən Azərbaycan Respublikasında məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr həyata keçirirlər. Adıçəkilən maddənin II hissəsinə müvafiq olaraq məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Azərbaycan Respublikasının Ali Məhkəməsi, Azərbaycan Respublikasının apellyasiya məhkəmələri, Azərbaycan Respublikasının ümumi məhkəmələri və digər ixtisaslaşdırılmış məhkəmələri həyata keçirirlər [1].

Məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə həyata keçirən Azərbaycan Respublikasının Ali Məhkəməsi (bundan sonra – Ali Məhkəmə) Konstitusiyanın 131-ci maddəsinə əsasən ümumi və ixtisaslaşdırılmış məhkəmələrin icraatına aid edilən mülki, cinayət və digər işlər üzrə ali məhkəmə orqanıdır. O, kassasiya qaydasında ədalət mühakiməsini həyata keçirir, həmçinin məhkəmələrin praktikasına aid məsələlər üzrə izahatlar verir. Ali Məhkəmənin hakimlərini Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının Milli Məclisi təyin edir. Ali Məhkəmənin qərarları dərc edilməlidir [1].

Ali Məhkəmənin müasir məhkəmə sistemindəki yeri və rolunun mahiyyətini aydınlaşdırmaq məqsədilə öncə Azərbaycanda Ali Məhkəmənin təsis edilməsinin tarixinə nəzər yetirilməsi məqsədəmüvafiqdir. Belə ki, ölkəmizdə Ali Məhkəmənin təsis edilməsi sovet hakimiyyətinin qurulduğu dövrə təsadüf edir. 1920-ci ilin aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi və Azərbaycanda Sovet Sosialist Respublikası (İctimai Şura Cümhuriyyəti) yarandı. Beləliklə, yeni hakimiyyətin fəaliyyətə başlaması ilə Xalq Cümhuriyyəti dövründə ölkədə mövcud olmuş bütün dövlət aparatı ləğv edildi.

Yeni hökumətin gördüyü ilk işlərdən biri 1921-ci ildə Azərbaycanda ilk Konstitusiyanın qəbulu oldu. 1921-ci il mayın 6-da toplanmış Birinci Ümum-Azərbaycan Sovetlər Qurultayının gündəliyinə daxil edilmiş əsas məsələlərdən biri Konstitusiyanın qəbulu idi. Beləliklə, həmin ilin may ayının 19-da keçirilmiş iclasda Azərbaycanın ilk Konstitusiyası yekdilliklə qəbul olundu [3, s. 367].

İlk Konstitusiyanın qəbulu yeni dövlət aparatının təşkili müstəvisində məhkəmə və prokurorluq orqanlarının təşkili və fəaliyyəti qaydasında dəyişikliyi də zəruri edirdi. Bu baxımdan, 1922-ci il dekabr ayının 9-da Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin (Azərbaycan SSR MİK) 2-ci sessiyasında "Azərbaycan SSR məhkəmə quruluşu haqqında Əsasnamə" qəbul edildi. Bu Əsasnaməyə və Azərbaycan SSR MİK-in 1923-cü il 13 fevral tarixli qərarlarına əsasən respublikada vahid məhkəmə sistemi yaradıldı. Bu vahid məhkəmə sisteminə bir xalq hakimindən ibarət xalq məhkəmələri, bir hakim və iki xalq iclasçısından ibarət xalq məhkəmələri, mahal xalq məhkəmələri və Azərbaycan SSR Ali Məhkəməsi daxil edildi. Bununla da Azərbaycanda ilk dəfə ali məhkəmə orqanı olan Ali Məhkəmə yaradıldı [3, s. 405-406].

Azərbaycan SSR Ali Məhkəməsi bütün məhkəmə orqanlarının fəaliyyətinə nəzarət edirdi, Bakı və Gəncə mahal məhkəmələrinin baxdıqları cinayət və mülki işlərdən verilmiş kassasiya şikayətlərinə və etirazlara baxırdı. Həmçinin Ali Məhkəmə xüsusilə dövlət əhəmiyyətli işlərə birinci instansiya məhkəməsi qismində baxırdı [3, s. 406].

Bununla yanaşı qeyd edilməlidir ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə də qismən ali məhkəmənin funksiyalarını (aşağı instansiya (dairə) məhkəmələrinin fəaliyyətini yoxlamaq) həyata keçirən orqan – 1918-ci ilin noyabrın 14-də Bakı Dairə Məhkəməsinin binasında yaradılmış Azərbaycan Məhkəmə Palatası mövcud idi. Elə həmin gün ədliyyə nazirinin təqdimatı ilə hökumət tərəfindən təsdiq edilmiş "Azərbaycan Məhkəmə palatası haqqında" Əsasnamənin 2-ci bəndinə müvafiq olaraq bu Palata 2 departamentdən – mülki və cinayət işləri üzrə departamentlərdən ibarət olmalı idi. Bununla belə Məhkəmə Palatası apellyasiya məhkəməsi statusuna malik idi [3, s. 354-355].

Ali Məhkəmə funksiyalarını həyata keçirəcək Azərbaycan Senatının Əsasnaməsinin layihəsi 1920-ci ilin mart ayında hazırlanıb qəbul edilməsi üçün Azərbaycan Xalq Cümhuriyyətinin Parlamentinə təqdim edilmişdi. Azərbaycan Senatı hüquq mühafizə, inzibati, kassasiya və məhkəmə fəaliyyətini həyata keçirməli, cinayət, mülki və inzibati departamentlərdən ibarət quruluşda fəaliyyət göstərməli idi. Lakin 1920-ci il aprelin 28-də bolşevik Rusiyasının işğalı nəticəsində Senatın təşkili baş tutmamışdır. Bu baxımdan Azərbaycanda ali məhkəmə orqanının yaranma tarixi 1923-cü il 13 fevral tarixli əsasnamənin qəbulu ilə bağlıdır.

Azərbaycan Respublikasının birinci instansiya, apellyasiya və kassasiya instansiyalarından ibarət yeni üçpilləli müstəqil məhkəmə sisteminin yaradılması Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə aparılmış məhkəmə-hüquq islahatı nəticəsində keçmiş sovetlər birliyindən miras qalmış ölkənin hüquq sisteminin demokratik prinsiplər əsasında tamamilə yenidən qurulması ilə baş vermişdir.

Mütərəqqi islahatların nəticəsi kimi məhkəmə-hüquq sisteminin yenidən təşkili aspektində «Konstitusiya məhkəməsi haqqında», «Məhkəmələr və hakimlər haqqında», «Prokurorluq haqqında», «Polis haqqında», «Əməliyyat-axtarış fəaliyyəti haqqında» və digər qanunlar, əvvəlkilərdən prinsipcə köklü surətdə fərqlənən Mülki və Mülki-Prosessual, Cinayət və Cinayət-Prosessual, Cəzaların İcrası və s. məcəllələr qəbul edilmişdir.

Sadalanan qanunlardan "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının

Qanunu (bundan sonra – Qanun) ədalət mühakiməsini həyata keçirməyə yönəlmiş məhkəmə hakimiyyətinə dair məsələləri özündə nəzərdə tutur. Bu Qanunun 19-cu maddəsinə əsasən, Azərbaycan Respublikasının məhkəmə sisteminə rayon (şəhər) məhkəmələri, ağır cinayətlər məhkəmələri, Naxçıvan Muxtar Respublikasının ağır cinayətlər məhkəməsi, hərbi məhkəmələr; inzibati məhkəmələr, kommersiya məhkəmələri, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi, apellyasiya məhkəmələri və Ali Məhkəmə daxildir. Azərbaycan Respublikasının məhkəmə sistemi daxilində qanunla müəyyən edilmiş qaydada digər məhkəmələr də yaradıla bilər [2].

Qanunun 77-ci maddəsinə müvafiq olaraq Ali Məhkəmə kassasiya instansiyası məhkəməsi kimi qanunla müəyyən edilmiş prosessual qaydada ədalət mühakiməsini həyata keçirir. Ali Məhkəmə Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində təşkil edilir, onun yurisdiksiyası Azərbaycan Respublikasının bütün ərazisinə şamil edilir [2].

Ali Məhkəmənin ilkin konstitusion funksiyası kassasiya qaydasında ədalət mühakiməsini həyata keçirməkdir. Mənası latın dilində "cassatio" – ləğvetməni ifadə edən "kassasiya" sözünün prosessual mənada hüquqi termin kimi işlədilməsi XVII əsrə təsadüf edir və Avropa məhkəmələrinin ənənəsində bu növ icraatı həyata keçirən ilk xüsusi orqan kimi 1790-cı ildə Fransa Kassasiya Tribunalı yaradılmışdır [5].

Müasir dövrdə xarici ölkələrin məhkəmə sistemlərində kassasiya qaydasında icraatın xüsusiyyət və hədlərinin müxtəlif modellərinə rast gəlinir. Bunlara nümunə kimi kassasiya icraatının məhkəmə qərarının yalnız hüquqi qaydalara uyğunluğunun yoxlanılması kimi müəyyən edildiyi Fransa Respublikasını misal gətirmək olar. Əksər Avropa ölkələri, o cümlədən Belçika, Yunanıstan, Almaniya və İtaliya da sonuncu modeli seçmişdir. Ölkəmizdə keçirilmiş məhkəmə islahatları nəticəsində məhz həmin yanaşmaya üstünlük verilmişdir.

Ümumilikdə ölkəmizdə kassasiya icraatı, o cümlədən bütövlükdə Ali Məhkəmənin statusuna dair müddəalar Fransız modeli ilə bənzərlik təşkil edir. Fransız modelinə əsasən kassasiya məhkəməsi kimi ali məhkəmə ilk növbədə ağır cinayətlər və apellyasiya məhkəmələrinin qərarlarından şikayətlərə baxır. Məhkəmə yalnız hüquqa dair məsələləri nəzərdən keçirir (faktla bağlı məsələləri deyil) və bütün Fransada qanunvericiliyin vahid şərhi və tətbiqi üçün məsul hakimiyyət orqanıdır. O, həmçinin qanunların konstitusiyaya uyğunluğunun yoxlanılması ilə bağlı şikayətləri Konstitusiya Şurasına göndərməzdən əvvəl şikayətin predmetinin aidiyyətini yoxlayır, Avropa İnsan Hüquqları Məhkəməsinin tələbi ilə aşağı instansiya məhkəmələrinin hökmlərinə və bir sıra digər işlərə baxır [5].

Bildiyimiz kimi, MDB ölkələrinin məhkəmə sistemləri ictimai-siyasi və sosial amillər nəzərə alınmaqla əhəmiyyətli dərəcədə bənzərdir. Bu ölkələrdən Qazaxıstanın modelində Ali məhkəmənin statusuna nəzər yetirdikdə görürük ki, burada Ali Məhkəmə yerli və digər məhkəmələrə tabe olan mülki, cinayət və digər işlərdə Qazaxıstan Respublikasının ən yüksək məhkəmə orqanıdır, qanunlarda nəzərdə tutulmuş prosessual formalarda fəaliyyətlərinə nəzarət edir və məhkəmə təcrübəsi məsələlərinə aydınlıq gətirir [4; 6].

Qanunvericiliyimizə 2019-cu ildə edilmiş dəyişikliklə Ali Məhkəmənin kassasiya icraatı ilə yanaşı, digər mühüm funksiyası təsbit edilmiş oldu. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununa "Ali Məhkəmə tərəfindən vahid məhkəmə təcrübəsinin formalaşdırılması" sərlövhəli 79-1-ci maddə əlavə edildi [2].

Həmin maddəyə əsasən, vahid məhkəmə təcrübəsi məhkəmələrin hüquqi məsələlərin həllinə

yanaşmasının sabitliyini və ədalət mühakiməsi həyata keçirilərkən maddi və prosessual hüquq normalarının eyni cür tətbiq edilməsini təmin etmək məqsədilə formalaşdırılır.

Ali Məhkəmə hüququn tətbiqi üzrə vahid məhkəmə təcrübəsini baxdığı işlər üzrə məhkəmə kollegiyalarının və Ali Məhkəmənin Plenumunun qərarları, habelə Ali Məhkəmənin Plenumunun məhkəmə təcrübəsinə dair verdiyi izahlar vasitəsilə formalaşdırır. Məhkəmə təcrübəsinin ümumiləşdirilməsi nəticəsində məhkəmələr tərəfindən maddi və prosessual hüquq normalarının tətbiqində sistemli xarakter daşıyan nöqsanlar müəyyən edildikdə Ali Məhkəmənin Plenumu məsələyə baxır və belə nöqsanlara yol verilməməsi üçün müvafiq izahı nəzərdə tutan qərar qəbul edir.

Ali Məhkəmə Plenumunun məhkəmələr tərəfindən maddi və prosessual hüquq normalarının tətbiqində sistemli xarakter daşıyan nöqsanlarla bağlı qərarı qəbul edildikdən sonra nöqsanların müəyyən edildiyi sahədə məhkəmələrin fəaliyyətinin monitorinqi təşkil edilir. Monitorinq ən azı 1 il müddətində həyata keçirilir. Monitorinqin aparılması qaydasını Ali Məhkəmənin təklifləri əsasında Məhkəmə-Hüquq Şurası müəyyən edir. Monitorinqin nəticələri hakimlərin fəaliyyətinin Məhkəmə-Hüquq Şurası tərəfindən qiymətləndirilməsi zamanı nəzərə alınır [2].

Yekunda qeyd edilməlidir ki, bəhsi gedən dəyişikliyin qüvvəyə minməsi ilə bütün prosessual məcəllələrə maddi və prosessual hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulmasının hökmün, qərarın, qətnamənin, qərardadın ləğv edilməsinin əsası kimi müəyyən edilməsi, habelə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi ilə bağlı müvafiq müddəalar əlavə edilmişdir.

**İstifadə olunmuş mənbələr:**

1. Azərbaycan Respublikasının Konstitusiyası // 12 noyabr 1995-ci ildə qəbul edilmişdir (26 sentyabr 2016-cı il tarixdə olan əlavə və dəyişikliklər). – Bakı: Qanun, – 2019. – 96 s.

2. “Məhkəmə və hakimlər haqqında” Azərbaycan Respublikasının 1997-ci il 10 iyun tarixli 310-IQ nömrəli Qanunu, maddələr 77-85: [Elektron resurs]/URL: https://e-qanun.az/framework/3933

3. X.İsmayılov, Azərbaycan Hüquq Tarixi. – Bakı: Elm və təhsil. – 2023.

4. Суд и государство / Под ред. Л.В. Головко, Б. Матьё. – М.: Статут, – 2018.

5. Serge Guinchard, André Varinard and Thierry Debard,Institutions juridictionnelles (Məhkəmə institutları), 11-ci tiraj, (Paris: Dalloz, 2011).

6. Qazaxıstan Respublikasının “Məhkəmə sistemi və hakimlərin statusu haqqında” 2000-ci il 25 dekabr tarixli 132 nömrəli Konstitusiya Qanunu: [Elektron resurs]/URL: http://www.akorda.kz/www/www_akorda_kz.nsf/sections?OpenForm&id_doc=B33797C1DB262809462572340019E7D2&lang=ru

**Сулейманлы Наргиз Натиг гызы**

## ВЕРХОВНЫЙ СУД АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ: ЕГО МЕСТО И РОЛЬ В СУДЕБНОЙ СИСТЕМЕ

### РЕЗЮМЕ

Судебная система Азербайджанской Республики состоит из судов первой, апелляционной и кассационной инстанций. Верховный Суд, являясь судом последней кассационной инстанции, является высшим судебным органом, формирующим кассационное производство и единую судебную практику.

**Suleymanli Nargiz Natiq**

## THE SUPREME COURT OF THE REPUBLIC OF AZERBAIJAN: ITS PLACE AND ROLE IN THE COURT SYSTEM

**SUMMARY**

The judicial system of the Republic of Azerbaijan consists of first instance, appeal and cassation instance courts. The Supreme Court, being the last cassation instance court, is the supreme judicial body that forms the cassation proceedings and unified judicial practice.

**Redaksiyaya daxilolma tarixi: 09.02.2024**
**Təkrar işlənməyə göndərilmə tarixi: 11.02.2024**
**Çapa qəbul olunma tarixi: 14.02.2024**